Aqrar Sığorta Fondunun İdarə Heyətinin
2023-cü il 14 mart tarixli 04/23
nömrəli qərarı ilə təsdiq edilmişdir.

# Pomidor bitkisinin sığortası üzrə aqrar sığorta məhsulunun şərtləri

## 1. Ümumi müddəalar

1.1. Pomidor bitkisinin sığortası üzrə aqrar sığorta məhsulunun şərtləri "Aqrar sığorta haqqında" Azərbaycan Respublikası Qanununa və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 oktyabr tarixli 431 nömrəli Qərarı ilə təsdiq edilmiş "Aqrar sığorta Qaydalarına" (bundan sonra – Qaydalar) əsasən hazırlanmışdır.

## 2. Qısaltmalar

"EKTİS" - Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi
"ASİS" - Aqrar Sığorta İnformasiya Sistemi

## 3. Anlayışlar

**müstəqil ekspert** – sığorta risklərini və (və ya) zərərləri qiymətləndirən, habelə sığorta hadisələrini araşdıran fiziki şəxs;
**aqrar sığortalı** (bundan sonra – sığortalı) – Qaydalara uyğun olaraq əmlak mənafeləri sığortalanan kənd təsərrüfatı məhsullarının istehsalçısı olan fiziki və ya hüquqi şəxs;
**faydalanan şəxs** – aqrar sığorta müqaviləsinə (bundan sonra – sığorta müqaviləsi) uyğun olaraq sığorta ödənişi verilməli olan şəxs;
**riskin qiymətləndirilməsi** – Qaydalarda və Şərtlərdə nəzərdə tutulan hallarda, sığorta müqaviləsi bağlanmamışdan əvvəl müstəqil ekspert tərəfindən sığorta predmetinə baxış keçirilərək məruz qala biləcəyi risklərin müəyyənləşdirilməsi;
**zərərin qiymətləndirilməsi** – sığorta müqaviləsinə əsasən sığorta hadisəsinin baş verməsi nəticəsində yaranan zərərlərin müstəqil ekspertlər tərəfindən müəyyənləşdirilməsi;
**şərtsiz azadolma məbləği** - sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin sığorta təminatı ilə əhatə olunmayan və hər bir halda sığortalının üzərində qalan hissəsi;
**şərtsiz gözləmə müddəti** – sığorta tələbi və ya sığorta ödənişinin sığorta hadisəsinin baş verməsindən keçən həmin müddət qədər vaxt ərzində yaranan itkilərə şamil edilmədiyi müddət.

## 4. Sığorta predmeti

4.1. Pomidor bitkisi hazırki məhsulun şərti ilə sığorta predmeti hesab olunur.

## 5. Sığorta riskləri

5.1. Aşağıda qeyd olunan bir və ya bir neçə risklər nəticəsində pomidor bitkisinin meyvə hissəsinə dəymiş zərərin miqdarına sığorta müqaviləsi ilə təminat verilir:
5.1.1. dolu;
5.1.2. yanğın;
5.1.3. zəlzələ;
5.1.4. torpaq sürüşməsi;
5.1.5. qasırğa;
5.1.6. fırtına
5.1.7. sel və ya subasma;
5.1.8. vəhşi heyvanların hücumu;
5.1.9. bitki xəstəlikləri və zərərvericiləri;
5.1.10. xüsusi təhlükəli ziyanvericilərin yayılması və hücumu;
5.1.11. üçüncü şəxslərin hərəkətləri.
5.2. Sığortalının seçimi əsasında əlavə sığorta haqqı ödəməklə, pomidor bitkisinin məhsul təminatına dair sığorta müqavilələrində onların məhsullarında dolu riski nəticəsində yaranan miqdar itkisi ilə yanaşı, keyfiyyət itkisinə də təminat verilə bilər.
5.3. Yuxarıda nəzərdə tutulan risklərdən təminatlar aşağıdakı hallar nəticəsində yaranan zərərləri əhatə edir:

- dolu riski təminatı - dolu dənələrinin birbaşa dəyməsi nəticəsində yaranan zərərlər;
- yanğın riski təminatı - yanğının, ildırımın, partlayışın, həmçinin yanğın və partlayış nəticəsində meydana gələn duman, buxar və istiliyin təsiri ilə yaranan zərərlər;
- zəlzələ riski təminatı - zəlzələnin birbaşa səbəb olacağı zərərlər;
- torpaq sürüşməsi riski təminatı - ağırlıq qüvvəsi, meyillilik, şiddətli yağış, sel və bənzəri digər hadisələrin baş verməsi nəticəsində torpağın və ya torpaqdan ibarət olan kütlələrin hərəkəti nəticəsində yaranan zərərlər;
- qasırğa riski təminatı - məhdud bir ərazidə qəflətən baş verən atmosfer təzyiqi dəyişikliyi nəticəsində burulğan şəklindəki çox şiddətli küləyin təsiri ilə meydana gələn zərərlər;
- fırtına riski təminatı - yağış, qar və dolu yağıntılarından ən azı biri ilə birlikdə və ya qeyd olunan yağıntılar olmadan, 10 metr yüksəklikdə və sürəti 25 m/saniyədən çox olan küləklərin əsməsi nəticəsində, həmçinin külək zamanı onun aşırdığı, sürüdüyü və ya atdığı əşyaların dəyməsi nəticəsində yaranan zərərlər;
- dolu riski nəticəsində məhsullarda yaranan keyfiyyət itkisi təminatı - dolu dənələrinin birbaşa dəyməsi nəticəsində pomidor bitkisinin məhsulunda yaranan keyfiyyət itkisi;
- sel və ya subasma riski təminatı – davamlı yağış yağması və ya qar əriməsi nəticəsində əmələ gələn ani su kütlələrinin təsiri ilə çay, göl, dərə, kanal və digər su hövzələrində suyun miqdarının artaraq daşması, yamaclardan suyun axması, həmçinin bunların nəticəsində torpağın alt qatına suyun yığılması və ya torpağın su keçirmə qabiliyyətindən artıq miqdarda suyun torpağın üst qatında toplanması nəticəsində məhsula dəyən zərərlər;
- vəhşi heyvanların hücumu – pomidor bitkisində vəhşi heyvanların hücumu nəticəsində yaranan zərərlər;
- bitki xəstəlik və zərərvericiləri – Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 29 dekabr tarixli 280 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında aşkar edilməyən, məhdud dairədə yayılmış və ölkə üçün potensial təhlükə törədə bilən karantin tətbiq edilən zərərli orqanizmlərin Siyahısı"nda göstərilənlər istisna olmaqla, digər bitki xəstəlik və zərərvericilərin yayılması nəticəsində yaranan zərərlər;
- xüsusi təhlükəli ziyanvericilərin yayılması – Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 7 dekabr tarixli 260 nömrəli Qərarı ilə təsdiq edilmiş "Karantin elan olunan ərazilərdə fitosanitar tədbirlərin aparılması xərcləri dövlət büdcəsi hesabına həyata keçirilən Hallar"ın 2.2-ci bəndində göstərilənlər istisna olmaqla, digər xüsusi təhlükəli ziyanvericilərin yayılması nəticəsində yaranan zərərlər;
- üçüncü şəxslərin hərəkətləri – sığortalı və ya faydalanan şəxsin ailə üzvləri istisna olmaqla, digər şəxslərin hərəkət və ya hərəkətsizliyi nəticəsində dəyən zərərlər.

**Qeyd:** *"Ailə üzvləri" dedikdə, şəxsin uşaqları (övladlığa götürülmüş uşaqları), ölümündən sonra doğulmuş uşaqları, arvadı (əri), valideynləri (övladlığa götürənləri) başa düşülür.*

5.4. Yuxarıda göstərilmiş risklərdən hansının baş verməsi nəticəsində zərərin yaranmasının müəyyən edilməsində müstəqil ekspertin və sığorta hadisəsinin baş verməsini təsdiqləyən səlahiyyətli dövlət orqanlarının rəyləri əsas götürülür.

**6. Sığorta məbləğinin müəyyən edilməsi**

6.1. Pomidor bitkisinin sığortası üzrə sığorta məbləği bitkinin əkildiyi ərazinin sahəsi, gözlənilən məhsuldarlıq miqdarı və həmin məhsulun qiyməti nəzərə alınmaqla, Aqrar Sığorta Fondu (bundan sonra – Fond) tərəfindən müəyyən edilmiş minimum və maksimum hədlər çərçivəsində seçir. (Cədvəl 1) Sığorta məbləği məhsulun sığortalandığı maksimal məbləğdir.

***Cədvəl 1***

| süfrəlik | Məhsuldarlıq (ha/sentner) | Qiymət (Sentner/AZN) |
|---|---|---|
| Minimum | 100 | 40 |
| Maksimum | 250 | 130 |

| tomatlıq | Məhsuldarlıq (ha/sentner) | Qiymət (Sentner/AZN) |
|---|---|---|
| Minimum | 100 | 30 |
| Maksimum | 250 | 50 |

Sığorta məbləğinin müəyyən edilməsi üçün aşağıdakı məlumatlardan istifadə edilir:

- Əkin aparılmış ərazinin sahəsi (hektar, sot)
- 1 hektar (kiçik sahələrdə - sot) əkin sahəsindən gözlənilən məhsuldarlıq miqdarı (sentner)
- 1 sentner məhsulun bazar qiyməti

Sığorta məbləği aşağdakı düsturla hesablanır (misal kimi hektar qeyd edilib):

**Əkin sahəsi x 1 hektar sahədən gözlənilən məhsuldarlıq miqdarı x 1 sentner məhsulun bazar qiyməti**
**Praktik misal:**

- Şəmkirdə əkin sahəsi – 1 hektar
- 1 hektar sahədən gözlənilən məhsuldarlıq miqdarı – 100 sentner
- 1 sentner məhsulun bazar qiyməti – 40 mamat

Sığorta məbləği = 1 x 100 x 40 = 4000 manat

**7. Şərtsiz azadolma**

7.1. Hər bir hadisə üzrə şərtsiz azadolma məbləği sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləğinə tətbiq olunur. (Cədvəl 2 və 3)

**8. Sığorta tarifi**

8.1. Sığorta tarifi sığorta riskinin dəyəridir. Sığorta tarifi sığorta haqqının hesablanması üçün istifadə olunur.
8.2. Sığorta tarifləri təminat verilən risklərdən və şərtsiz azadolma məbləğindən asılı olaraq aşağıda göstərilən sığorta paketlərinin kombinasiyasından seçilir.(Cədvəl 2 və 3)

**9. Sığorta haqqı və onun hesablanması**

9.1. Sığorta haqqı risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta müqaviləsində nəzərdə tutulan qaydada sığortalının Fonda ödəməli olduğu pul məbləğidir.
9.2 Sığorta haqqı idarəedici qurum tərəfindən hesablanır və aşağıdakı hissələrdən ibarətdir:

- sığortalı tərəfindən ödənilməli olan hissə;
- dövlət büdcəsinin vəsaiti hesabına ödənilən hissə.

9.3. Sığorta müqaviləsində başqa qayda nəzərdə tutulmayıbsa, sığorta haqqının sığortalı tərəfindən ödənilməli olan hissəsi birdəfəlik ödənilir.
9.4. İdarəedici qurum tərəfindən sığorta müqaviləsində sığorta haqqının sığortalı tərəfindən ödənilən hissəsinin hissə-hissə ödənilməsi nəzərdə tutula bilər.
9.5. Sığorta müqaviləsində sığorta haqqının hissə-hissə ödənilməsi nəzərdə tutulduğu halda sığorta haqqının ödənilməsi qaydası həmin müqavilədə müəyyən edilir. Hər bir halda sığortalı tərəfindən ödənilməli olan sığorta haqqının ilk hissəsi həmin məbləğin ən azı 25 faizini təşkil edir.
9.6. Sığorta haqqı aşağıdakı düsturla hesablanır:

**Sığorta məbləği x sığorta tarifi / 100.**

**Praktiki misal:**

- Şəmkirdə əkin sahəsi – 1 hektar
- 1 hektar sahədən gözlənilən məhsuldarlıq miqdarı – 100 sentner
- 1 sentner məhsulun bazar qiyməti – 40 mamat

Sığorta haqqı = 4 000 x 4,34 / 100 = 173,60 manat.

Sığorta haqqının 50%-i sığortalı tərəfindən ödənilir. Bu misalda sığortalı tərəfindən ödənilən sığorta haqqı 26,80 manat təşkil edir.

**10. Sığorta haqqına güzəşt və əlavələr**

10.1. Pomidor bitkisinin sığortası üzrə sığorta müqavilələrində sığorta haqqına aşağıdakı güzəştlər tətbiq edilir:

- sığortalının yaşı 29 və daha aşağı olduqda - "gənc fermer güzəşti" – 5 %;
- sığortalanmış predmetin yerləşdiyi ərazi dolu riskindən qorunma konstruksiyalarına malik olduqda – 5 %;
- sığortalı ilə Fond arasında həmin növ üzrə əvvəlki illərdə bağlanmış sığorta müqavilələri mövcud olduqda – "zərərsizlik güzəşti".

10.2. Zərərsizlik güzəşti sığorta müqavilələri bağlanmış illər ərzində sığorta hadisəsi baş vermədikdə sığorta hadisəsi baş verməyən illərin sayı nəzərə alınaraq hesablanır. (Cədvəl 4)

***Cədvəl 4***

| | **1 il** | **2 il** | **3 il və daha artıq** |
|---|---|---|---|
| **Sığorta haqqına güzəştin məbləği** | 5 % | 10 % | 15 % |

10.3. Tətbiq olunan güzəştlərin cəmi sığorta haqqının 25 %-dən çox ola bilməz.
10.4. Pomidor bitkisinin sığortası üzrə sığorta müqavilələrində sığorta haqqına əlavələr həmin predmet ilə əlaqədar son 4 sığorta müqaviləsi bağlanmış illər ərzində yalnız sığorta ödənişi verilən illərin sayı və məcmu sığorta ödənişinin məcmu sığorta haqqına nisbəti nəzərə alınaraq hesablanır.

**11. Komisyon muzd və işlərin aparılması xərcləri**

11.1. Bu Şərtlərin 11.2-ci bəndində nəzərdə tutulmuş hal istisna olmaqla, vasitəçi aqrar sığortaçılar sığorta vasitəçiliyi fəaliyyətinə görə bağlanmış müqavilələr üzrə hesablanmış sığorta haqqının 15 faizi məbləğində komisyon muzd alırlar.
11.2. Qanunvericiliklə kənd təsərrüfatı istehsalçılarına bitkiçilik sahəsində dövlət dəstəyinin verilməsi üçün sığorta müqaviləsinin bağlanması tələb olunduqda, həmin sığorta müqavilələrinə münasibətdə komisyon muzd sığorta haqqının 5 faizini təşkil edir.

11.3. Pomidor bitkisinin sığortası üzrə sığorta müqaviləsində işlərin aparılması xərcləri hesablanmış sığorta haqqının 35 faizi müəyyən edilir.

**12. Şərtsiz gözləmə müddəti**

12.1. Pomidor bitkisinin sığortası üzrə riskin qiymətləndirilməsi nəticəsində bağlanılan müqavilələrdə 7 gün şərtsiz gözləmə müddəti müəyyən olunur.

**13. Sığorta müqaviləsinin bağlanılması və bağlanması üçün müraciət tarixləri**

13.1. Pomidor bitkisinin sığortalamaq istəyən şəxslər sığorta müqaviləsinin bağlanması üçün bu Şərtlərin 1 nömrəli Əlavəsində qeyd olunan müddətlərdə vasitəçi aqrar sığortaçılara müraciət edə bilərlər. Sığorta müqaviləsi bağlamaq istəyən şəxslər vasitəçi aqrar sığortaçılar vasitəsilə ASİS-də qeydiyyatdan keçirlər.
13.2. Sığorta müqaviləsi bağlamaq istəyən şəxsin təqdim etdiyi məlumatların doğruluğu EKTİS-də olan məlumatlarla müqayisə edilərək yoxlandıqdan sonra onun müraciəti qəbul edilir.
13.3. Şəxsin təqdim etdiyi məlumatlarla EKTİS-də qeyd olunan məlumatlar fərqli olduğu halda sığorta müqaviləsi yalnız EKTİS-də olan məlumatların yenilənməsindən sonra bağlanıla bilər.
13.4. Şəxsin təqdim etdiyi məlumatlarla EKTİS-də qeyd olunan məlumatlar eyni olduqda, idarəedici qurum tərəfindən riskin qiymətləndirilməsi və ya sığorta müqaviləsinin bağlanması barədə qərarlardan biri qəbul edilir və müvafiq hərəkətlər həyata keçirilir.

**Qeyd:** *Aqrar Subsidiya Şurasının qərarına əsasən pomidor bitkisinin becərilməsinə görə əkin subsidiyasının verilməsi üçün sığortalanma tələbi qoyulduqda sığorta müqaviləsinin bağlanması üçün son müraciət tarixləri əkin bəyanının son gününədək uzadıla bilər.*

**14. Sığorta müqaviləsinin qüvvədə olma müddəti**

14.1. Pomidor bitkisinin sığortası üzrə sığorta müqaviləsi bu Şərtlərin 1 nömrəli Əlavəsində qeyd olunan vaxtadək qüvvədədir**.**

**15. Sığorta təminatının başlanması**

15.1. Sığorta təminatı dolu, fırtına, qasırğa, habelə sel və ya subasma, risklərinə münasibətdə bitkinin cücərməsindən və ya şitilin torpağa əkilməsindən (ümumilikdə əkilmiş bitkilərin 90 faizində, hər bitkinin isə ən azı 20 faizində), digər risklərə münasibətdə sığorta müqaviləsinin qüvvəyə mindiyi tarixdən başlayır.

**16. Sığorta hadisəsi barədə məlumatlandırma**

16.1. Sığortalı və ya faydalanan şəxs pomidor bitkisinin sığortası ilə bağlı bağlanmış sığorta müqavilələri üzrə baş vermiş sığorta hadisələri barədə məlumat hadisənin baş vermə tarixindən 10 gün ərzində vasitəçi aqrar sığortaçıya və ya idarəedici quruma, eyni zamanda həmin hadisə barədə məlumatlandırılmalı olan digər səlahiyyətli dövlət orqanlarına məlumat verməlidir.

**17. Məhsulun yenidən əkilməsi prosesi**

17.1. Sığortalanmış məhsulun 50 %-dən çox hissəsi zərər görərsə və müstəqil ekspertin rəyinə əsasən həmin məhsulun yenidən əkilməsi mümkün olduqda, sığortalının zərər tarixinə qədər əkilməyə çəkmiş olduğu xərclər ona geri ödənilir. Bu zaman maksimal məbləği ərazinin zərər görən hissəsinə uyğun sığorta məbləğinin 30 faizinə qədər ola bilər.
17.2. Müstəqil ekspert tərəfindən verilmiş rəydə eyni məhsulun yenidən əkilməsi məqbul hesab edildikdə, sığorta müqaviləsi eyni şərtlərlə davam edir. Bu zaman ödənilən əkilmə xərclərinin məbləği sığorta məbləğindən çıxılır
17.3. Müstəqil ekspert tərəfindən verilmiş rəydə eyni məhsulun əkilməsi məqbul hesab edilmədikdə mövcud müqaviləyə xitam verilir və sığortalıya dəymiş zərərə müvafiq sığorta ödənişi edilir. Sığortalı tərəfindən həmin ərazidə fərqli məhsul əkildikdə onun istəyi ilə yeni məhsul üçün ayrı bir müqavilə bağlanıla bilər.
17.4. Aşağıdakı hallardan biri olduqda, məhsulun yenidən əkilməsi xərcləri ödənilmir:

- istehsal ili dövründə, daha əvvəl məhsulun yenidən əkilməsi xərcləri ödənildikdə;
- yenidən əkilmə şəraitinin əlverişli olmadığı aşkarlandıqda;
- təminat verilmiş risklər nəticəsində sığortalanmış predmetə zərər dəysə də, müstəqil ekspertin rəyinə əsasən sığortalının əldə edəcəyi məhsulun məbləği sığorta müqaviləsində göstərilən sığorta məbləğindən çox olduqda.

**18. Sığorta hadisəsi ilə bağlı tələb olunan sənədlərin siyahısı**

18.1. Sığorta ödənişi aşağıdakı sənədlərin hər birinin mövcud olduğu halda həyata keçirilir:
18.1.1. sığortalının və ya faydalanan şəxsin idarəedici quruma ünvanladığı, sığorta hadisəsinin təfərrüatlarını və nəticəsini əks etdirən sığorta tələbi
18.1.2.sığorta hadisəsinin araşdırılması və zərərin qiymətləndirilməsi üzrə müstəqil ekspertin rəyi;
18.1.3. yanğın riskinə münasibətdə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin təqdim etdiyi sığorta hadisəsi hesab edilə bilən halın təfərrüatları (hadisənin baş vermə vaxtı, yeri, hadisənin baş verməsində təqsirli olan və (və ya) zərərçəkən şəxs (şəxslər), həmçinin zərər dəymiş əmlak, zərərin xüsusiyyətlərini) əks etdirən və müvafiq faktı təsdiq edən sənəd;
18.1.4. dolu, fırtına, qasırğa, torpaq sürüşməsi, sel və ya subasma risklərinə münasibətdə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təqdim etdiyi sığorta hadisəsi hesab edilə bilən halın təfərrüatlarını (hadisənin baş vermə vaxtı, yeri və s.) əks etdirən və müvafiq faktı təsdiq edən sənəd;
18.1.5. zəlzələ riskinə dair Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin təqdim etdiyi sığorta hadisəsi hesab edilə bilən halın təfərrüatlarını (hadisənin baş vermə vaxtı, yeri və s.) əks etdirən və müvafiq faktı təsdiq edən sənəd;
18.1.6. üçüncü şəxslərin hərəkətlərinə münasibətdə müvafiq səlahiyyətli dövlət orqanının təqdim etdiyi sığorta hadisəsi hesab edilə bilən halın təfərrüatlarını (hadisənin baş vermə vaxtı, yeri, hadisəsinin baş verməsində təqsirli olan və (və ya) zərərçəkən şəxs (şəxslər), həmçinin zərər dəymiş əmlak, zərərin xüsusiyyətlərini) əks etdirən və müvafiq faktı təsdiq edən sənəd.

**19. Sığorta ödənişinin verilməsi**

19.1. Sığorta ödənişi sığorta hadisəsi baş verdikdə sığorta müqaviləsinə uyğun olaraq Şərtlərin 6-cı hissəsində müəyyən edilmiş sığorta məbləği əsas götürülməklə hesablanır.
19.1.1.sığorta müqaviləsində məhsuldarlıq miqdarı faktiki məhsuldarlıq miqdarından az göstərildikdə sığorta hadisəsi nəticəsində müstəqil ekspert tərəfindən qiymətləndirilən və sığorta ödənişinin hesablanmasında əsas götürülən zərər faizi sığorta müqaviləsində göstərilən məhsuldarlıq miqdarına əsasən hesablanan sığorta məbləğinə tətbiq edilməklə;
19.1.2.bu Şərtlərin 19.1.1-ci yarımbəndində göstərilmiş hal istisna olmaqla, digər hallarda isə sığorta hadisəsi nəticəsində müstəqil ekspertlər tərəfindən qiymətləndirilən və sığorta ödənişinin hesablanmasında əsas götürülən zərər faizi

müstəqil ekspert tərəfindən müəyyən olunan faktiki məhsuldarlıq miqdarına əsasən hesablanan sığorta məbləğinə tətbiq edilməklə;

19.2 . Sığortalı sığorta hadisəsinin baş verməsi zamanı öz öhdəliklərini yerinə yetirmədiyindən zərərin miqdarı artarsa, yekun zərərin miqdarından artan hissə həmin həcmdə azalır

19.3. Pomidor bitkisinin sığortası üzrə məhsulun tam məhv olması halları istisna olmaqla, sığorta ödənişi yığım dövründən əvvəl ödənilmir.

19.4 Zərərin məbləği azadolma məbləğindən aşağı olduqda, sığorta ödənişi verilmir.

19.5. Sığorta ödənişi azadolma və zərərin minimuma endirilməsi üçün çəkilən xərclər nəzərə alınmaqla hesablanır.

19.6. Sığorta ödənişinin ödənilməsi zamanı Fond sığorta ödənişi məbləğindən sığortalının sığorta müqaviləsi üzrə ona ödəməli olduğu, vaxtı çatmış və ya gecikdirilmiş sığorta haqqı məbləğini tutmaq hüququna malikdir.

19.7. Sığorta ödənişi sığorta məbləğindən və dəymiş real zərər məbləğindən çox ola bilməz.

19.8. Qaydalara uyğun olaraq sığorta ödənişinin verilməsi üçün tələb olunan bütün sənədlər idarəedici qurum tərəfindən təqdim edildikdən sonra Fond 7 iş günü ərzində sığorta ödənişinin tam və ya qismən verilməsi və ya ödənişin verilməsindən imtina barədə qərar qəbul edir və bu barədə sığortalıya "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş qaydada rəsmi məlumat verir.

19.9. Fond sığorta ödənişinin tam və ya qismən verilməsi barədə qərar qəbul etdikdə, sığorta ödənişini birbaşa sığortalının bank hesabına köçürür.

19.10. Fond sığorta ödənişinin verilməsindən tam və ya qismən imtina barədə qərarında qanunvericilik, sığorta müqaviləsi və ya sığorta qaydalarının müddəalarına istinad etməklə imtina üçün əsaslarını aydın göstərməlidir.

**Praktiki misal:**

- Şəmkirdə əkin sahəsi – 1 hektar
- 1 hektar sahədən gözlənilən məhsuldarlıq miqdarı – 100 sentner
- 1 sentner məhsulun bazar qiyməti – 40 mamat

Sığorta məbləği = 1 x 100 x 40 = 4000 manat
Azadolma məbləği sığorta məbləğinin 10%-i

Yanğın zamanı ərazinin 40 % hissəsi zədələnib.

Sığorta ödənişi = 4 000*40%-4 000*10%= 1 600-400=1 200 AZN

**19. Hüquqlarınızın pozulduğunu hesab etdiyiniz halda müraciət**

ŞİKAYƏT EDİN:

Aqrar Sığorta Fondunun Apellyasiya Şurası
Ünvanı: Bakı şəhəri, Xətai rayonu, Nobel prospekti, ev 175
Tel: 1651

Azərbaycan Respublikasının Mərkəzi Bankı
Ünvanı: Bakı şəhəri, R.Behbudov küçəsi, 90.
Tel:+99412 966

**Qeyd:** Pomidor bitkisinin sığortası ilə əlaqədar digər şərtlərlə http://www.e-qanun.az/framework/46251 linkindən keçid edərək "Aqrar sığorta Qaydaları"nda tanış ola bilərsiniz.

**Pomidor (süfrəlik) bitkisi üzrə sığorta tarifləri**

**Cədvəl 2**

| **İqtisadi rayonlar** | • *dolu;*<br>• *yanğın;*<br>• *zəlzələ;*<br>• *torpaq sürüşməsi;*<br>• *qasırğa;*<br>• *fırtına;*<br>• *sel və ya subasma;*<br>• *normadan artıq yağan qar yağıntıları*<br>• *vəhşi heyvanların hücumu;*<br>• *üçüncü şəxslərin hərəkətləri riskləri üzrə təminat* | • *bitki xəstəlikləri və zərərvericilər;*<br>• *xüsusi təhlükəli ziyanvericilərin yayılması və hücumu riskləri üzrə təminat* | • *dolu riski nəticəsində məhsullarda yaranan keyfiyyət itkisi üzrə təminat* |
|---|---|---|---|
| **Azadolma** | 10% | 30% | 10% |
| Bakı | 2.02% | 2% | 0.56% |
| Abşeron-Xızı | 2.02% | 2% | 0.56% |
| Dağlıq Şirvan | 2.77% | 2% | 0.80% |
| Gəncə-Daşkəsən (Samux rayonu istisna olmaqla)** | 4.34% | 2% | 1.36% |
| Qarabağ *(Ağcabədi, Bərdə və Tərtər rayonları istisna olmaqla)**** | 4.34% | 2% | 1.36% |
| Qazax-Tovuz | 4.34% | 2% | 1.36% |
| Quba-Xaçmaz | 2.36% | 2% | 0.64% |
| Lənkəran-Astara | 2.20% | 2% | 0.56% |

| | | | |
|---|---|---|---|
| Mərkəzi Aran | 2.11% | 2% | 0.56% |
| Mil-Muğan | 2.11% | 2% | 0.56% |
| Şəki-Zaqatala | 4.83% | 2% | 1.04% |
| Şərqi Zəngəzur | 4.34% | 2% | 1.36% |
| Şirvan-Salyan | 2.11% | 2% | 0.56% |

***Qeyd:*** *bitki xəstəlikləri və zərərvericilər, xüsusi təhlükəli ziyanvericilərin yayılması riskləri üzrə təminatda aqreqat limit sığorta məbləğinin 50%-i müəyyən edilmişdir.*
** 2-ci sütunda göstərilmiş təminatlar seçilmədən 3-cü və 4-cü sütunlardakı təminatlar seçilə bilməz.*
****** *Samux rayonuna münasibətdə Mərkəzi Aran iqtisadi rayonunun tarifləri tətbiq edilir.*
**** Ağcabədi, Bərdə və Tərtər rayonlarına münasibətdə Mərkəzi Aran iqtisadi rayonunun tarifləri tətbiq edilir.*
***** Füzuli şəhərinə (eyni zamanda Füzuli şəhərinin dövlət ehtiyat fondu torpaqları da daxil olmaqla), 1 nömrəli Qayıdış qəsəbəsi, 3 nömrəli Qayıdış qəsəbəsi, 6 nömrəli Qayıdış qəsəbəsi, 8 nömrəli Qayıdış qəsəbəsi, 9 nömrəli Qayıdış qəsəbəsi, 10 nömrəli Qayıdış qəsəbəsi, Dördüncü Zobucuq qəsəbəsi, Beşinci Zobucuq qəsəbəsi, Alxanlı kəndi, Arayatlı kəndi, Araz Dilağarda kəndi, Aşağı Əbdurrəhmanlı kəndi, Aşağı Kürdmahmudlu kəndi, Aşağı Seyidəhmədli kəndi, Babı kəndi, Bala Bəhmənli kəndi, Böyük Bəhmənli kəndi, Əhmədalılar kəndi, Əhmədbəyli kəndi, İkinci Mahmudlu kəndi, Qarabağ kəndi, Qaradağlı kəndi, Qaraxanbəyli kəndi, Yuxarı Aybasanlı kəndi, Yuxarı Kürdmahmudlu kəndinə, həmçinin Füzulinin şərq və cənub hissəsində yerləşən, adları qeyd edilməyən digər kənd və qəsəbələrinə münasibətdə Mil-Muğan iqtisadi rayonunun tarifləri tətbiq edilir.*

**Pomidor (texniki) bitkisi üzrə sığorta tarifləri**

**Cədvəl 3**

| **İqtisadi rayonlar** | • *dolu;*<br>• *yanğın;*<br>• *zəlzələ;*<br>• *torpaq sürüşməsi;*<br>• *qasırğa;*<br>• *fırtına;*<br>• *sel və ya subasma;*<br>• *normadan artıq yağan qar yağıntıları*<br>• *vəhşi heyvanların hücumu;*<br>• *üçüncü şəxslərin hərəkətləri riskləri üzrə təminat* | • *bitki xəstəlikləri və zərərvericilər;*<br>• *xüsusi təhlükəli ziyanvericilərin yayılması və hücumu riskləri üzrə təminat* |
|---|---|---|
| **Azadolma** | | |
| Bakı | 2.12% | 2% |
| Abşeron-Xızı | 2.12% | 2% |
| Dağlıq Şirvan | 2.91% | 2% |
| Gəncə-Daşkəsən (Samux rayonu istisna olmaqla)** | 4.58% | 2% |
| Qarabağ *(Ağcabədi, Bərdə və Tərtər rayonları istisna olmaqla)**** | 4.58% | 2% |
| Qazax-Tovuz | 4.58% | 2% |
| Quba-Xaçmaz | 2.47% | 2% |
| Lənkəran-Astara | 2.30% | 2% |
| Mərkəzi Aran | 2.21% | 2% |
| Mil-Muğan | 2.21% | 2% |
| Şəki-Zaqatala | 5.02% | 2% |
| Şərqi Zəngəzur | 4.58% | 2% |
| Şirvan-Salyan | 2.21% | 2% |

***Qeyd:*** *bitki xəstəlikləri və zərərvericilər, xüsusi təhlükəli ziyanvericilərin yayılması riskləri üzrə təminatda aqreqat limit sığorta məbləğinin 50%-i müəyyən edilmişdir.*
** 2-ci sütunda göstərilmiş təminat seçilmədən 3-cü sütundakı təminat seçilə bilməz.*
****** *Samux rayonuna münasibətdə Mərkəzi Aran iqtisadi rayonunun tarifləri tətbiq edilir.*
**** Ağcabədi, Bərdə və Tərtər rayonlarına münasibətdə Mərkəzi Aran iqtisadi rayonunun tarifləri tətbiq edilir.*
***** Füzuli şəhərinə (eyni zamanda Füzuli şəhərinin dövlət ehtiyat fondu torpaqları da daxil olmaqla), 1 nömrəli Qayıdış qəsəbəsi, 3 nömrəli Qayıdış qəsəbəsi, 6 nömrəli Qayıdış qəsəbəsi, 8 nömrəli Qayıdış qəsəbəsi, 9 nömrəli Qayıdış qəsəbəsi, 10 nömrəli Qayıdış qəsəbəsi, Dördüncü Zobucuq qəsəbəsi, Beşinci Zobucuq qəsəbəsi, Alxanlı kəndi, Arayatlı kəndi, Araz Dilağarda kəndi, Aşağı Əbdurrəhmanlı kəndi, Aşağı Kürdmahmudlu kəndi, Aşağı Seyidəhmədli kəndi, Babı kəndi, Bala Bəhmənli kəndi, Böyük Bəhmənli kəndi, Əhmədalılar kəndi, Əhmədbəyli kəndi, İkinci Mahmudlu kəndi, Qarabağ kəndi, Qaradağlı kəndi, Qaraxanbəyli kəndi, Yuxarı Aybasanlı kəndi, Yuxarı Kürdmahmudlu kəndinə, həmçinin Füzulinin şərq və cənub hissəsində yerləşən, adları qeyd edilməyən digər kənd və qəsəbələrinə münasibətdə münasibətdə Mil-Muğan iqtisadi rayonunun tarifləri tətbiq edilir.*